**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№369/3** **04 noyabr 2024-cü il**

# Auditorlar Palatasının üzvlərinin saytlarının monitorinqi və qiymətləndirilməsinin nəticəsi üzrə hazırlanmış hesabat barədə

Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 1.12-ci "Auditor xidməti sahəsində özünü reklam hallarının monitorinqinin aparılması və müvafiq təkliflərin hazırlanması" və 8.8-ci "Auditorlar Palatasının üzvlərinin saytlarının monitorinqi və qiymətləndirilməsi" bəndlərinə və Palata Şurasının 2022-ci il 14 aprel tarixli 343/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında Əsasnamə"nin 22-ci maddəsinə uyğun olaraq Palatanın üzvlərinin veb-saytlarının monitorinqinin nəticəsinə dair hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2024-cü ilin III rübü üzrə auditor təşkilatları və sərbəst auditorların veb-saytlarının monitorinqinin nəticəsinə dair hazırlanmış hesabat nəzərə alınsın (əlavə olunur).

2. Palatanın Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki:

2.1. Veb-saytları olmayan auditor təşkilatları və sərbəst auditorlara Auditorlar Palatası Şurasının 2022-ci il 14 aprel tarixli 343/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında Əsasnamə"nin 2-ci "Reklam qaydaları" bölməsinin 22-ci "İnternet tətbiqləri / proqramları" maddəsinə uyğun olaraq 2 ay müddətində öz veb-saytlarını yaratmaqları barədə məktubun göndərilməsini təmin etsin;

2.2. 2024-cü ilin III rübü üzrə aparılmış monitorinqin nəticəsi olaraq "yaxşı", "kafi" və "qeyri-kafi" qiymət almış adları aşağıda qeyd olunan 16 auditor təşkilatlarının rəhbərlərinə öz veb-saytlarına Palata Şurasının 2022-ci il 14 aprel tarixli 343/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında Əsasnamə"nin 2-ci "Reklam qaydaları" bölməsinin 22-ci "İnternet tətbiqləri / proqramları" maddəsinə uyğun olaraq 1 ay müddətində düzəliş edilməsi ilə bağlı xəbərdarlıq məktubu göndərilməsini təmin etsin:

1. "ABAK-Az Crovve LTD" MMC (direktor – Hüseynov Zamin Ramazan oğlu);
2. "Alfa-Audit" QSC (direktor – Musayev Vəli Malik oğlu);
3. "ANR Audit" MMC (direktor – Abbaslı Namiq Rasim oğlu);
4. "ALLTEGRITY GROUP" MMC (direktor – Cabbarov Rüfət Tofiq oğlu);
5. "AZFİNANCE AND CONSULTİNG" MMC (direktor – Kazımov Elnur Şahin oğlu);
6. "ARQUMENT AUDİT" MMC (direktor – Əliyev Sadiq Zabit oğlu);
7. "Bakinar Audit" MMC (direktor – Rəhimov Vüsal Eyvaz oğlu);
8. "Biznes Audit" MMC (direktor – Əliyev Məhərrəm Fayaz oğlu);
9. "CONSULTİNG GROUP" MMC (direktor – Əkbərov Elçin Ehtibar oğlu);
10. "FİNEXPERT" MMC (direktor – Əşrəfov Elməddin Əşrəf oğlu);
11. "FOUR REASON" MMC (direktor – Qasımov Vüsal Əlisəfa oğlu);
12. "GENERAL AUDİT CO" MMC (direktor – Mirzəyeva Qızqayıt Baloğlan qızı);
13. "Global Audit" MMC (direktor – Pirimov Azər Arif oğlu);
14. "TİD CONSULTING" QSC (direktor – Rzayeva Fidan Cabir qızı);
15. "TAX, Audit & Konsaltinq Servis" MMC (direktor – Abbasova Lalə Fərman qızı);
16. "UHY Audit" MMC (direktor – Mirzəyev Təbriz Şahin oğlu).

2.3. Bu qərarın 2.1-ci və 2.2-ci bəndlərində qeyd edilən müddətlərdə veb-saytlarını "Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında Əsasnamə"nin müvafiq maddəsinə uyğun hazırlamayan auditor təşkilatları və sərbəst auditorlar barəsində Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında Əsasnamə"yə əsasən müvafiq qaydada intizam və tənbeh tədbirləri görülməsi barədə təkliflərini təqdim etsin.

3. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**